## *TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ*

UOT 37.

**_Əminə Əli qızı Niftiyeva_**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçisi*

# DAXİLİ MONİTORİNQ TƏHSİLİN KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASI VASİTƏSİ KİMİ

**_Амина Али гызы Нифтиева_**
*старший научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# ВНУТРЕННИЙ МОНИТОРИНГ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

**_Amina Ali Niftiyeva_**
*senior researcher of*
*Institute of Education of the Rupublic of Azerbaijan*

# INTERNAL MONITORING AS A MEANS TO IMPROVE EDUCATION QUALITY

**Xülasə:** Məqalədə təhsil müəssisələrində daxili monitorinqin təşkilinin əsas problemləri müzakirə olunur və monitorinqin məqsədi, vəzifələri, prinsipləri, obyektləri və istiqamətləri vurğulanır. Məqalədə təhsil müəssisələrində aparılan daxili monitorinqlər zamanı əldə edilən məlumatların inkişaf meyllərini proqnozlaşdırmaq, keyfiyyətli təhsil əldə etmək və düzgün idarəetmə qərarları qəbul etmək üçün əhəmiyyətindən bəhs olunur. Bəzi problemləri həll etmək üçün tövsiyələr verilir.
***Açar sözlər:*** *təhsil, keyfiyyət, monitorinq, idarəetmə, şagird, müəllim.*

**Резюме:** В статье рассматриваются основные проблемы внутреннего мониторинга в образовательных учреждениях и выделяются цели, задачи, принципы, объекты и направления мониторинга. В статье подчеркивается важность информации, получаемой в ходе внутреннего мониторинга в образовательных учреждениях, для прогнозирования тенденций развития, достижения качественного образования и принятия правильных управленческих решений. В статье даются рекомендации по решению некоторых проблем.
***Ключевые слова:*** *образование, качество, мониторинг, управление, ученик, учитель.*

**Summary:** The main problems of internal monitoring are discussed in the article and the purpose, objectives, principles, objects and directions of monitoring are emphasized. The importance of information obtained during internal monitoring in educational institutions to predict development trends, the achieving of qualitative education and the making of good management decisions are highlighted in the article. Recommendations for solving some of the problems are provided.
***Key words:*** *education, quality, monitoring, management, pupil, teacher.*

Daxili monitorinq hər hansı bir müəssisənin fəaliyyətində mühüm komponentdir. Monitorinq müəyyən qərarları qəbul etmək üçün lazım olan informasiya ilə idarəetmə sistemini təmin edir. İdarəetmə ilə əlaqəli olaraq, monitorinq informasiya funksiyasını yerinə yetirir.

Monitorinq obyektləri müxtəlifdir: təhsil müəssisələri, təhsil orqanları, müxtəlif səviyyələrdə təhsil sistemlərinin struktur elementləri və tərkibləri, formalaşma və inkişaf prosesləri, təhsilin məzmunu, təhsilin məqsədləri, tədris planları, üsulları, vasitələri, işəgötürənlərin müraciətləri və s.

Monitorinq daxili idarəetmə prosesi olub təhsilin keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. O, təhsil fəaliyyətinin güclü və zəif tərəflərini üzə çıxararaq gözlənilən nəticələri əldə etmək üçün praktik təkliflərlə çıxış edə bilər. Monitorinq dedikdə yalnız təkliflər deyil, problemlərin həll edilməsi üçün konkret addımların da atılması nəzərdə tutulur.

Monitorinq sözü latın mənşəli "monere" felindən götürülüb, "xəbərdar etmək" mənasını verir. Təhsilin keyfiyyətinin daxili monitorinqi təhsil müəssisəsinin idarəetmə orqanlarının vaxtında və məlumatlı qərarlar qəbul etməsini təmin edən bir fəaliyyət hesab edilir. Belə ki, monitorinq fəaliyyətin hazırki vəziyyətini müəyyən edir.

Monitorinqin məqsədi aşağıdakılardır:

- müşahidələrin və ölçmələrin təşkili;
- təhsil prosesinin şərtləri, məzmunu və nəticələri barədə etibarlı və obyektiv məlumatların əldə edilməsi;
- vahid normativ sənədlərin hazırlanması, tətbiqi, diaqnostik metodları, istifadə qaydaları;
- məlumatların sistemləşdirilməsi və yoxlanılması, bütün səviyyələrdə monitorinq işləri aparılması;
- monitorinq üçün proqram və avadanlıqların inkişafı və s.

Monitorinqin predmeti

- monitorinq obyektlərinin sosial-mədəni, kadr, maliyyə və iqtisadi vəziyyəti;
- monitorinq obyektləri fondlarının vəziyyəti; dövlət və təşkilatın həyat fəaliyyətinə qabaqcıl sosial-mədəni, istehsal və informasiya texnologiyalarının daxil edilməsi;
- monitorinq obyektlərinin investisiya fəaliyyəti;
- ətraf mühitin mühafizəsi və təbiət resurslarından səmərəli istifadə;
- işçilərin sosial-mədəni və əmək hüquqlarının mühafizəsi;
- hüquqi məsələlər;

Monitorinqin iştirakçıları aşağıdakılardır:

- səlahiyyətli dövlət orqanı;
- mərkəzi və yerli icra orqanları;
- qeyri-hökumət orqanları;
- müayinə edilən layihə, proqram təşkilat rəhbərləri;
- qanunvericilik üzrə səlahiyyətli orqan tərəfindən monitorinqin keçirilməsinə cəlb olunmuş məsləhət xidmətləri üzrə ixtisaslaşan təşkilat, məsləhətçi və ekspertlər.

Təhsilin keyfiyyətinin daxili monitorinqinin yaradılması və həyata keçirilməsi, bütün təhsil müəssisələrində eyni şəkildə aparılması vacib hesab olunur. Müəyyən bir təhsil müəssisəsində təhsilin keyfiyyətinin monitorinqinin tərkibi və məzmunu bu təhsil müəssisəsinin xüsusiyyətlərini əks etdirir. Eyni zamanda, daxili keyfiyyətin monitorinqinin təşkili və həyata keçirilməsi üçün müəyyən tələblər və qaydalar mövcuddur.

Təlim-tərbiyə prosesinin keyfiyyətinin, şagirdlərin təlim nəticələrinin mütəmadi monitorinqi təhsilin məzmununun yeniləşməsi, təhsil standartlarının tətbiqi, dərs yükünün normallaşdırılması, təhsilalanların sağlamlığının qorunması və möhkəmləndirilməsi mənəvi tərbiyə problemlərinin kəskinləşdiyi şəraitdə də xüsusi əhəmiyyət kəsb edir. Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, təhsil sisteminin inkişafı, müəllimlərin peşəkar bacarıqlarının artırılması və təhsilalanların təhsil səviyyəsinin yüksəldilməsi ilə bağlı problemlərə göstərilən diqqət bu problemlərin mümkün qədər tez həll olunmasına və təhsil prosesi keyfiyyətinin yaxşılaşdırılmasına şərait yaradır.

Daxili keyfiyyətin monitorinqi, təhsil müəssisələrində olan prosedurları nəzərdən keçirmək, qiymətləndirmək, yoxlamaq və ya araşdırmanın keyfiyyətini təmin etmək üçün ümumi bir müddətdir.

Monitorinqin üç əsas komponenti var:

- Məlumatın toplanması
- Məlumatın təhlili
- Görülən tədbirlər

Məlumatların toplanması

Təhsil keyfiyyətinin monitorinqi yalnız etibarlı məlumatların toplanması sayəsində həyata keçirilə bilər. Belə məlumatların mənbəyi müxtəlif ola bilər: əsasən, qiymətləndirmə, bəzən isə hər hansı bir sorğunun və ya tədqiqatın nəticələri və s. Əsas məqsəd təhlil obyekti ola biləcək məlumatların toplanmasıdır.

Məlumatların təhlili

Məlumatların təhlili elə həyata keçirilməlidir ki, bu təhlil problemlərin aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsinə kömək etsin. Bura təhsili idarə edənlərə problemləri müəyyən etmək üçün etibarlı göstə-

ricilərin (indikatorların) müəyyənləşdirilməsi aiddir. Bu göstəricilər (indikatorlar) empirik nəticələrdir və reallığı əks etdirir.

Görülən tədbirlər

Monitorinq nəticəsində görülən tədbirlərə ehtiyat tədbirləri, islahedici tədbirlər və gücləndirici tədbirlər aiddir. Tədbir görmədən məlumat toplamaq və ya toplanan məlumatları yalnız təhlil etmək tədqiqat baxımından əhəmiyyətli ola bilər, lakin bu, idarəçilik baxımından nəticəsiz təcrübə sayılar.

Bir sıra təhsil müəssisələrində daxili monitorinqin əsas problemi onu necə təşkil etmək barədə fikrin olmamasıdır. Daxili monitorinq sisteminin qurulması mərhələsinin əsas məqsədi onun icrasına dair təşkilati və normativ sənədlərin hazırlanmasıdır. Belə sənədlərə daxili monitorinq haqqında əsasnamə, daxili monitorinqin aparılması üçün sifarişlər, daxili monitorinqin tədbirləri planı daxildir. Bu sənədlər mütləq olmalıdır.

Təhsil müəssisələrində daxili monitorinqin digər bir problemi inzibati nəzarət və hesabatlılığın olmamasıdır. Bəzi hallarda təşkilatın daxili monitorinq tədbirlərinin həyata keçirilməsi üçün heç bir planı yoxdur və ya tamamilə formaldır, aşkar edilmiş pozuntunun səbəblərinin təhlili aparılmır və aradan qaldırılmır.

Beləliklə, monitorinq ayrı-ayrılıqda deyil, tədris prosesinin keyfiyyətini idarə etmək üçün daimi bir vasitə kimi zəruridir.

**Məqalənin elmi yeniliyi:** Təhsil müəssisələrində təhsilin keyfiyyətinin daxili monitorinqi, təhsil müəssisələrinin daxilində olan prosedurları nəzərdən keçirmək, qiymətləndirmək və araşdırmanın keyfiyyətini təmin etmək baxımından bu gün çox aktuallıq kəsb edir.

**Məqalənin praktik əhəmiyyəti:** Təhsilin keyfiyyətinin daxili monitorinqi məktəb rəhbərliyinin sağlam idarəetmə qərarlarını qəbul etməsi üçün əsas ola bilər və təhsilin keyfiyyətinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsinə müsbət təsir göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə
2. Qəndilov R., Zeynalov Z. Müəllim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi // ARTİ-nin Elmi əsərləri, 2008, № 2
3. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007.
4. Федоренко И. В. Соотношение понятий контроля и аудита на современном этапе // Учет, анализ, аудит: проблемы теории и практики: Сб. науч. трудов / Gод общ. ред. Г. И. Золотаревой; Сиб. гос. аэрокосмич. ун-т. Красноярск, 2012, № 9, с. 146–154.
5. Диагностика и мониторинг в сфере образования / Сборник научных трудов Всероссийской научнопрактической конференции 11-13 октября 2006, г. Тольятти. М., 2006, 184 с.
6. Майоров А.Н. Мониторинг в образовании. М.: Интеллект-Центр, 2005, 424 с.

**E-mail:** emine.niftiyeva@mail.ru
**Rəyçi:** *ped.ü. elm.dok., dos.* İ.A. Cavadov

**Redaksiyaya daxil olub:** 24.10.2019